# RUHUMUZUN SƏRHƏDSİZ DUYĞULARI



***Şəddat CƏFƏROV,***
***iqtisadiyyat elmləri üzrə fəlsəfə doktoru,***
***Azərbaycan və Rusiya Yazıçılar və Jurnalistlər Birliklərinin üzvü,***
***Beynəlxalq Yazarlar Birliyinin üzvü***

***(Əvvəli ötən sayımızda)***

S.Rüstəmxanlının bu şeiri təkcə azadlığın tərənnümü deyil, azad ola bilməməyə çalışan düşüncənin də ifşasını bu möhtəşəm poetik əsərdə görə bilirik. Şair bütün gücü ilə azadlığın nə demək olduğunu, azad insanın nəyə qadir olduğunu göstərməyə çalışır. Özü də, zənnimcə, kifayət qədər poetik əhvalın təsiri ilə düşüncələrini oxucu yaddaşına yeridə bilir.

Maraqlıdır ki, elə qüvvələr də meydana çıxır ki, onlar azadlığı öz düşüncələrinə uyğun şərh edirlər. Həqiqətən, kimlərinsə, qənaətində sanki Azərbaycanın azad yaşaya bilmək imkanlarının məhdudluğu göstərilir. Amma əslində belə deyil. Həm ərazi, həm də əhali baxımından az gücdə azad ölkələr var ki, azadlığı özlərinin sarsılmaz mənəvi dəyəri hesab edirlər. Əlbəttə, azadlığa qarşı vuruşan qüvvələr yalanı qoruyanlardı. Əyrini düz kimi təqdim edənlərdi, qorxağı qəhrəmandan üstün tutanlardır. Amma S.Rüstəmxanlı bu əyarların qəti sərhədlərini göstərir. Xalqın qəhrəmanları onun azadlığının təminatçısıdır deyir. Biz də məhz S.Rüstəmxanlını elə bu cür döyüşkən əhval-ruhiyyəsinə görə uca tutur, onun düşüncələrini yüksəj qiymətləndirirk. S.Rüstəmxanlı "Mən deyən azadlıq " şeirinin davamında yazır:

Qitədən qitəyə qullar axırsa,
Daş dövrü can çəkir, ölməyib hələ,
Yadlara bağlısa savaş iznimiz -
Mən deyən azadlıq gəlməyib hələ...
İştah hücumunda - tarixin sonu,
Qısır sevgilərdə yüz nəsil donur.
Bir gündə kül olur əlinin izi,
Halal kişilərin son xatirəsi.
Qəbilə davası, qohum davası,
Adəmin davası, Nuhun davası...
Hələ təsəllimiz qılıncsa, oxsa,
Bakının yanında Təbrizim yoxsa,
Qovuşan qardaşlar Araz üstündə
Dərdini çörəktək bölməyib hələ,
Hələ də yurdumuz param-parçasa -
Mən deyən azadlıq gəlməyib hələ...
**Azadlıq! Su kimi hər evə axan, Azadlıq!**
**Hamıya bir gözlə baxan,**
**Günəşlə oyanan, baharla gələn,**
**Lüğətdən əyrilik sözünü silən...**
**Əvvəl öz nəfsindən azad olasan,**
**Pərvaz balalara qanad olasan...**
**Sonra bu dünyanın hədələrindən,**
**Dəyişkən lidercik gədələrindən,**
**Sonra Obamadan, sonra Putindən**
**Böyük dövlətlərin söz sammitindən,**
Qərbin qəzəbindən, Şərqin şərindən,
Dən gəzən siyasət cücələrindən,
Papanın qlobal siyasətindən
Hilala xaç taxmaq məharətindən...
Biryolluq qopasan bu gen dünyada!
Yoxsa... taleyimiz gülməyib hələ -
Hələ davam edir Səlib yürüşü,
Mən deyən azadlıq gəlməyib hələ...

Xalqını sevən şair üçün xalqının apardığı mübarizə idealları elə onun özünün məramını, məqsədini müəyyən edən hədəfdir. Sabir nə yazırsa, yazsın - yazdığı roman olsun, poema olsun, ədəbi-publisistik yazılar olsun - dəxli yoxdur, düşüncəsindən keçən nə varsa, hamısının məğzində vətən mənafeyi görür. Əlbəttə, Sabir milli azadlıq hərəkatı başlayanda Sovetlərin çöküşünü bir fürsət məqamı görərək milli azadlıq ruhunu oyatmaq naminə kəskin çıxışları ilə mübarizəyə qoşuldu. Şimali Azərbaycan üçün böyük azadlıq təmin olundu. Amma Sabir kimi adamlar bununla barışa bilməz.

Əvvəla, erməni seperatçıları hələ də Xankəndində idi. Onlar sərhədlərimizdən kənara atılmamışdı. Düşmənin güclü qüvvələri dünyanın məkrli, riyakar siyasət yeridən qüvvələri ilə birləşərək anti Azərbaycan siyasəti yeridirdilər. Bütün bunlar bir yana.

Sabir üçün böyük vətən, bütöv vətən anlamı Təbriz-Bakı birliyindən keçir. Ona görə də o, möhtəşəm "Vətən" şeirində hələ Bakı, Təbriz bir yerdə deyilsə, bu düşüncənin özünü də yarımçıq hesab edir. Məlum məsələdir ki, Arazın sərhəd olmağı bir göynəmdir. Tikanlı məftillər elə vətən torpağının üstündən keçdiyi kimi elə vətəni sevən oğulların da sinəsindən keçir. Sabirin qəlbindəki göynəmlər bu mənada əsl vətən göynəmləridir.

S.Rüstəmxanlının ədəbi publisistikasında insanı düşündürən elə incə, elə zərif məqamlar var ki, hər hansı bir oxucunun az-çox mənəvi dəyəri varsa, onun qəlbinin tellərini titrətməyə bilməz. Bu mənada onun çox maraqlı bir "Ana" adlı essesi var. Bu essedə Sabir anaya Oğuzdan gəlmə münasibətin müqəddəsliyini xatırladır. Sanki oxucusuna diktə edir ki, cənnəti anaların ayaqları altında görən İslamdan çox-çox əvvəl türk ananı başının baxtı, evinin taxtı adlandırırdı. Biz Sabir Rüstəmxanlının "Ana" essesindən müvafiq parçanı həyəcansız oxuya bilmərik: "*Qədim Oğuznamələr qadının gözəlliyini, igidliyini yüksək bədiiliklə təsvir edir. Dədə Qorqud boylarnıdan göründüyü kimi oğuz mühitində qızlar oğlanlarla qoşa, azad böyüyürlər, onlarla birgə tərbiyə alırdılar, döyüş, mübarizə sənətini öyrənirdilər, at çapmaqda, ox atmaqda, qılınc çalmaqda, qurşaq tutmaqda onlardan geri qalmırdılar və həyat yoldaşlarını, ərlərini də bu yöndən sınaqdan keçirib seçirdilər. Oğuzların layiqli qız təsəvvürü belə idi: "Mən yerimdən durmadan o yerindən durmuş olsun!" Yəni qadın yoldaşına tay olsun, onun çiyindaşı, silahdaşı olsun. Lakin həyat yoldaşı, qadın həm də gözəl olmalı idi:*

*"Bəri gəlgil, başım baxtı, evim taxtı!*
*Evdən çıxıb yürüyəndə səlvi boylum!*
*Topuğunda sarmaşanda qara saçlum!*
*Qurulu yaya bənzər çatma qaşlum!*
*Qoşa badam sığmayan dar ağızlım!*
*Küz almasına bənzər al yanaqlım!*

*"Kitabi Dədə Qorqud"dan alınmış bu parçadakı qadın gözəlliyi öz estetikası və ifadə tərzi ilə əbədi heyranlıq mənbəyidir... Tarix boyu türk qadını həmişə cəsarəti, qəhrəmanlığı, sədaqəti, ailəyə bağlılığı və fədakarlığı ilə seçilib. Buna görə də Dədə Qorqud boylarında qadını "başım taxtı, evim baxtı, kadınım, dirəgim, döləgim" deyə öyürlər. Eyni zamanda qadınlar da öz ərlərinə bu sözlərlə müraciət edirdilər: "başım baxtı, evim taxtı" Qədim türklərdə, ərəblərdən fərqli olaraq, doğulan uşaqlar arasında fərq qoymazdılar, ikisi də ailənin sevinciydi".*

Sabir başqa publisistik yazılarında olduğu kimi "Ana" essesində də maraqlı xatirələrə rəvac verir. Həyatı ilə bağlı olan, şahidi olduğu hadisələri yazının məğzinə gətirir. Bununla da o, yazısına xüsusi bir şirinlik də qatır. Biz dəfələrlə qeyd etdiyimiz kimi Sabir Rüstəmxanlı şairdir. Birinci növbədə o öz düşüncələrini poetik münasibəti ilə ifadə etməyə çalışır. Və səmimi etiraf etmək lazımdır ki, buna da nail ola bilir. Çünki birinci növbədə həyat, cəmiyyət, ümumiyyətlə, insan obrazının özü onun təsəvvüründə, təxəyyülündə poetik şəkildə təzahür edir.

Ana haqqında danışanda da hiss olunur ki, onsuz da poetik əhvalla yazılmış esse məqam gözləyir ki, düşüncələri poetik vüsətə çevirsin.

S.Rüstəmxanlının "Ana" essesi, zənnimcə, səmimi məzmununa, oxucu ruhuna sirayət etmək gücünə görə dərsliklərə də daxil edilə bilər. Yeni nəsil oxucular onun ana obrazını yaxından öyrənməklə, mənimsəməklə öz analarına sevginin mahiyyətini də düzgün qavraya, yaddaşlarına yaza bilərlər. Bu yerdə Sabirin çox dəyərli "Anaya məktub" adlı şeirini də yazının məğzinə gətirə bilərik:

Əziz ana, nə zaman ki
Mənim işim tərs gələrdi,
Mənə yaman hirslənərdin.
Deyərdin ki, bir qulaq as,
Səndən mənə oğul olmaz.
Düşünərdim: vaxt ötüşər,
Oxuyaram, yaşa dollam.
Anam görər böyüyəndə
Ona necə oğul ollam...
İllər keçib, boy atmışam,
Yekəlmişəm, əziz ana.
Tay-tuşumun arasında
Sözü ötən bir cavanam.
Daha çatmır qulağına
Kiminləsə dalaşmışam.
Filan qızı görüm deyə
Evlərinin ətrafında
Gecəyəcən dolaşmışam.
Kitablara baş qarışıb
İtirmişəm qoyunları.
Daha çatmır qulağına
Gündə yüz cür oyunlarım.
Meşələrdə azıb qaldı
Dəcəlliyin qoşunu da.
Yaman atdım
Kitabların daşını da...
Məndən yenə gileylisən,
Ana, bu gün eşitmişəm.
İndi bildim mən əvvəllər
Necə böyük səhv etmişəm.
Bilməmişəm, yaşa dolmaq,
Şair olmaq, alim olmaq
Oğul olmaq deyil hələ.
Böyüklər var, bircə gün də
Heç oğulluq etməmişdir,
Alimlər var anasının
Dar gününə yetməmişdir.
İndi bildim, nə istedad
Nə vəzifə, nə də ki ad
Oğulluğa bəs deyilmiş.
İndi bildim dediklərin
Elə-belə söz deyilmiş.

Biz dəyişən misraların fonunda anası qarşısında hesabat verən oğulun duyğularını görürük. Özü demək olar ki, dünya şöhrətli bir şəxsiyyətdir. Onu Turanın hər yerində yaxşı tanıyırlar. Avropanın tribunalarından vətən yaraları haqqında sinəsinin yanğısı ilə danışan bir sənətkar olduğunu elə anası da bilir. Başqa doğmaları da, qohumları da. Sanki bütün bunlar onun bir ananın oğlu olduğu, bir ananın qarşısında hesabat verməyə borclu olan övlad olduğunun yanında heç nədir. Şeir, əlbəttə, "Anaya məktub" adlanır. Şair də elə məktub janrının tələblərinə uyğun olaraq yaşadığı hissləri sanki uzaq səfərdə olan övladın anasına məktubu şəklində yazıya gətirir. Şeirin bütün motivlərindən ana qarşısında öz məsuliyyətini bilən bir uşşağın çırpıntılarını asanlıqla duymaq olar. Bu uşaq bu gün kim olsa da, anasının qarşısında çox körpədir. Hətta o, demək olar ki, təkcə ürək çırpıntıları ilə yox, həm də dizləri əsə-əsə ana qarşısında həyatı haqqında hesabat verir.

Bəlkə də yaşamağın dəyəri övlad üçün ana qarşısında öz məsuliyyətini dərk etməsidir.

Təsadüfi deyil ki, şair də bir övlad məsuliyyəti ilə sanki anasına biganə olduğunu xatırladır. Etiraf edir ki, o daha mühüm hesab etdiyi işlərlə məşğul olur və bu zaman anasının harada, necə yaşadığını, xəsytə olduğunu, əhvalının necə olduğunu bilməyib, bir növ onu unudub.

Xəstəsənmi, yorğunsanmı,
Aydan-aya bilməmişəm.
Dar günündə, tək günündə
Köməyinə gəlməmişəm.
Düz demisən sən o sözü,
Düz demisən, iki gözüm!
Eh, görünür, əzəl gündən
Analarda bəxt olmayır.
Qızlar üçün vaxt tapıram,
Sənin üçün vaxt olmayır.
Kinolara, görüşlərə,
Məclislərə, çağırışlara,
Yüz qeybətə, yüz söhbətə
Yad ellərə səyahətə
Vaxt tapıram,
Sənin üçün vaxt olmayır.
Taleyə bax övlad kimi
Xidmət üçün vaxt olmayır.
Eh, görünür, əzəl gündən
Analarda bəxt olmayır...

Doğrudan da, ürək göynədən mənzərədir. Dünyanın uzaq tribunalarından görünəsən, amma öz ananın ağrıacısından xəbərin olmaya. Əlbəttə, şairin ritorikasını, səmimi etiraflarını yaxşı başa düşmək olar. Necə olsa da, o vətən naminə çarpışıb, vətən üçün vuruşub. Onun yolu vətən ağrılarından keçib. Bir növ anası ilə bağlı qayğılar sanki unudulub. Amma əslində "Anaya məktub"da şair vətən üçün çarpışmalarını öz anası uğrunda çarpışmalar kimi təqdim edir. Əlbəttə, şair publisistik "Ana" essesində vətən müharibəsi şəhidlərinin, qəhrəmanlarının taleyini xatırladır.

***(Davamı 11-ci səhifədə)***

*(Əvvəli 10-cu səhifədə)*

Hətta şəhidlərdən birinin anasını sanki elə öz anası kimi xarakterizə edir. "Ana" essesinin sonluğunu şair çox təsirli düşüncələrlə bitirir: *"Ana sevgisi ilə vətən sevgisi insanı öz yurduna, ocağına bağlayan iki böyük qüvvədir. Ana-ata və övlad münasibəti bizim mənəvi varlığımızın və gücümüzün əsasıdır. Bu sevgi bizi əbədi olaraq öz kökümüzə bağlayır, Mirzə Cəlil demiş, Yer-göy günəşin başına dolandığı kimi biz də ata-anamızın, ocağımızın başına fırlanır və ordan qopa bilmirik. Başqa xalqlardan fərqli olaraq bizdə ailə bağları uşaqlar yaşa dolanda da davam edir...".* Burada Mirzə Cəlilin adı təsadüfi xatırlanmır. Doğru olaraq qeyd edir ki, yergöy necə günəşin ətrafında dolanırsa, biz də harada oluruqsa, olaq elə anamızın ətrafında dolanırıq. Anamızla bağlı düşüncələrimiz, qayğılarımız heç vaxt bizi tərk etmir. Biz anamızla yaşayırıq, necə ki, anamız da bizimlə yaşayır.

Tam cəsarətlə demək olar ki, "Ana" essesində şair ana obrazının mahiyyətində həm də vətənin özünü görür. Anaya sevgi ruhunda nə deyirsə, nə yazırsa, elə vətən üçün də onu deyir, onu yazır.

"Vətəndaşlığın əlifbası" kitabında maraqlı esselər sıralanır. Növbəti essedə şair ana dili haqqında danışır. Çox cəsarətlə belə bir fikir işlədir ki, türk dili dünyanın möcüzələrindən biridir. Bu dilin şirinliyi dil açan hər bir uşağın canına hopur, qanına hopur. Məsələ burasındadır ki, yabançı əlifbalar, işğalçı qüvvələr öz dillərini bizim Azərbaycan-türk dilinin ruhuna yeritməyə çalışsalar da, bu dilin şirinliyini acılığa döndərə bilməyiblər. Bu gün dünyada ən çox işlənən dillərdən biri də türk dilidir. Milyonlarla insan uzaq şərqdən üzü bəri orta Asiyadan keçərək bütün Qafqazdan, Volqaboyundan belə yaxın şərqə qədər geniş bir ərazini dolanaraq kiçik Asiyaya qədər yayılmış türk tayfaları, etnosları, bir sözlə, türkdilli xalqlar bu dildən istifadə edir. Çox böyük əraziyə, əhalisinin həddsiz dərəcədə zəngin mənəvi keçmişə malik olması, türk dilinin ölməzliyini təmin edir. Qürurunu daha da ucalara qaldırır.

Həmişə olduğu kimi şair "Ana dili" essesində də poeziyanın gücündən yararlanır. Xüsusilə ecazkar Güney azərbaycanlı müğənni Araz Elsəsin dilində əzbər olan ruh dilində yazılmış "Bir səsin gücü" adlı şeiri qəlbimizi ovsunlayır. S.Rüstəmxanlının poetik duyğulanmaları dilimizə sevgi təlqin edir. Biz "Bir səsin gücü" şeirində oxuyuruq:

Boynu qalstuklu körpə çiçəyim,
Bu boyda məclisdə
səndən savayı
öz ana dilində kəlmə kəsərək
bir nəfər danışan olmasa belə,
ədalı xanımlar, harın kişilər
oxuyub keçsə də yad bir havanı
sıxılma, əzizim,
darıxma canım!
səni bu daş duyar, bu divar duyar.
Səni bu göy duyar, bu hava duyar...
Şeir söylədiyin cingiltili səs
nə sənin səsindi, nə mənim səsim.
Çiçək pıçıltısı,
şimşək çaxışı,
könül hayqırışı -
Vətənin səsilş!
Salonu titrədən büllur harayla
Tanrının özüdü danışan bu gün.
Torpağın təpəri gəlib səsində
mürgülü vicdanlar oyatmaq üçün.
Yoxsa bu güc hardan, bu sehr hardan,
Yoxsa bu möcüzə, bu işıq hardan.
Yoxsa ki, bu bülbül zəngulələsindən
Çoxları çaşmazdı dal sıralarda.
Boynu qalstuklu körpə çiçəyim,
sinəndən fışqıran səsin bu axşam
güclüdür Koroğlu nərəsindən də,
güclüdür raketlər hədəsindən də!
Köksünə sıxılıb bir elin ruhu,
Ulduz təbəssümü, çeşmə nəğməsi.
Bir körpə çiyninə yüklənib gələn
Tarixin səsidir, tarixin səsi!
Beləcə bir səsə söykənir vətən,
Arxayın-arxayın ölməzliyinə.
Beləcə bir səsdən asılır Vətən
Yanır başım üstə günəştək yenə!..

S.Rüstəmxanlı Azərbaycan dilini tərənnüm edən şeirlər yazmaqdan heç vaxt usanmayıb. O dünyanın harasında olsa belə, doğma dildə yazdığı şeirlərlə onu dinləyən türkdilli hər bir soydaşımızın qəlbinə yol tapıb, varlığına, ruhuna qapı açıb. Çünki, o bu şeirləri ilə ana dilimizi qorumağı qarşısına məqsəd qoyur. Ana dilini qorumaq isə S.Rüstəmxanlının düşüncəsinə görə elə vətəni qorumaqdır. S.Rüstəmxanlı bu baxımdan Dədə Qorqud ruhunun daşıyıcısıdır. Nəsiminin varisidir. Onun varlığı Xətai, Füzuli, Vaqif, Axundzadə, Aşıq Ələsgər, Mirzə Cəlil, Cəfər Cabbarlı, Şəhriyar ruhu ilə birləşib. S.Rüstəmxanlının tərənnümlərində ana dili, vətən dili anlamı daşıyır. Və bu yerdə o, A.O.Çernyayevskinin 1882-ci ildə Tiflisdə nəşr olunan "Vətən dili" adlı dərsliyi təqdir edir. "Vətən dili" ana dili anlamının eyni mahiyyət daşıdığına bir daha inam gətirir.

S.Rüstəmxanlı "Ana dili" essesində daha bir şeirini təqdim edir: "Sağ ol, ana dilim" adlanan həmin şeirin mahiyyəti bundan ibarətdir ki, sən vətənin və millətin, bir sözlə, xalqımızın bütövlükdə qoruyucusu, sahibisən. Şair ana dilini məjhz bu qoruyuculuq missiyasına görə tərənnüm etməkdən usanmır. Zənnimcə, S.Rüstəmxanlının "Sağ ol, ana dilim" şeiri də oxucular üçün maraqlı olar:

Yolların sınandı yad ölkələrdə,
Neçə yad dodaqda səsləndi adım.
Sağ ol, ana dilim, məni heç yerdə
Köməksiz qoymadın, yalqız qoymadın.
Barmağın altında düymə fırlanır,
Londonla, Parislə yanaşı Bakı...
Doğma sözlər üçün darıxan hanı?
Deyin qoy dinləsin: "Danışır Bakı!"
Danışır, açılır ömrün baharı,
Dünyaya mən onun qoynundan uçdum.
Mənim ürəyimin antenaları
Türkün bu müqəddəs dilinə tuşdu.
Döyüşdə qılınctək siyrildi qından,
Başımın üstündə bayrağım oldu.
Torpağım ikiyə bölünən zaman
Bu dil bölünməyən torpağım oldu.
Utansın tarixə dəllallıq edən,
Tarix qapısına açar sözlər var.
Pərdəni qaldırsan, beş-on kəlmədən
Qondarma cildlər tar-mar olar.
Bu dildə sevincim, qəmim, kədərim,
Təzə ümidlərə açılan səhər.
Qapılar dalında qoydular səni,
Haqq dedin, dabandan soydular səni,
Ancaq məhv olmadın, anam, can dilim,
Ordular sarsıdan qəhrəman dilim!
Ömrüm qırılmazdı, yol qırılsa da,
Səninlə həmişə mən üzüağam.
Bədənim torpağa tapşırılsa da,
Ruhumu mən sənə tapşıracağam!

S.Rüstəmxanlı həmişə düşüncələrinin sonunda Azərbaycanlılıq, Azərbaycançılıq anlamına xüsusi diqqət yetirir. Ümumiyyətlə, S.Rüstəmxanlının düşüncəsində bölücülük yoxdur. O, vətəni bütöv gördüyü kimi bu vətənin irili-xırdalı bütün etnoslarını da bir amala, bir ideala bağlılıqda görür.

Şair xalqın mənəvi sərvətini onun ən qiymətli xəzinəsi hesab edir. Neft də, pambıq da, qızıl da - digər faydalı qazıntılar da maddi nemət olaraq dəyərlidir. Amma S.Rüstəmxanlı üçün xalqın mənəvi sərvəti daha qiymətlidir, daha dəyərlidir. Təsadüfi deyil ki, o, "Atalar sözü" adlı ayrıca bir essenin mənəvi varlığımızın bu dəyərli xəzinəsinə həsr edir. Çox dəyərli atalar sözlərini yazıya gətirir, təhlilə çəkir. Hətta arxaikləşmiş, unudulmuş atalar sözlərini də yada salır. Bir sözlə, S.Rüstəmxanlı atalar sözlərini əbədi müdriklik adlandırır. Və yeni nəsillərə bu zərrə-zərrə toplanmış olan xəzinəni ən qiymətli yadigar kimi əmanətləyir. Maraqlı atalar sözlərini yada salır: "At altında ər ölür", "Üzünü xalqa tutanın arxası möhkəm olar". "Əkən biçər, qonan köçər", "Altun əli bıçaq kəsməz", "Bulud yelkənə sığmaz", "Ard arınar, ad arınmaz", "Adlı kişi adından qorxar, adsız kişi tanrıdan qorxar", "Ağlama ölün üçün, ağla dəlin üçün", "Min aşçı, bir başçı", "Qurd qonşusunu yeməz" və s. Zənnimcə, bu atalar sözlərinin hər biri dəyər daşıyıcısı olduğuna görə ayrıca araşdırmaya, tədqiqata layiqdir. Çünki hər bir atalar sözü də müəyyən dövrün, müəyyən hadisənin, müəyyən dünyagörüşün bəhrəsi kimi yaranır. "Atalar-oğullar" essesi də tarixi uğurlara söykənişi ilə diqqəti cəlb edir. Bu essedə də müəllif Dədə Qorqud aləminə qayıdaraq tarixdən aldığı hikmətləri yada salır. Yeni nəsillərə elə düşüncə aşılamağa çalışır ki, bu düşüncələr indiki nəslə gələcəyi qorumaq, qurmaq üçün silah olsun.

# RUHUMUZUN SƏRHƏDSİZ DUYĞULARI

Bu dilin reaktiv təyyarələri
Araz sərhədini qıran kəlmələr.

Sabir poetik imkanları ilə nə qədər qanadlanırqanadlansın, xəyalı ilə bütün dünyanı dolanıb-gəzə bilər. Amma yenə ana dilinin hakim olduğu məkana qayıtmağı özünə borc bilir. Onun üçün ən böyük fəxarət mənbələrindən biri də efirdən eşitdiyi "Danışır Bakı" ecazkarlığıdır. Şair əlbəttə, yeri gəldikcə türkün dilini tərənnüm edir, bu dilin gözəlliyini Allahına bərabər tutur, amma eyni zamanda bu dilə ağız büzən, bu dili ikrah obrazına çevirənləri də tənqid atəşinə tutmaqdan çəkinmir. Onun düşüncəsində təkcə sevgi azdır. Həm də bu dil uğrunda gərək son damla qanına qədər vuruşmağı, savaşmağı özünə borc biləsən.

S.Rüstəmxanlı vətən coğrafiyasını sadəcə tarixi xəritə kimi qəbul etmir, onu ruhumuzun sərhədləri kimi qəbul edir. Təsadüfi deyil ki, "Sağ ol, ana dilim" şeirində Qarabağ-Qaradağ adları qoşa çəkilir. Bununla demək istəyir ki, Qarabağ və Qaradağ elə qardaşdırlar ki, onları heç qiyamətdə də ayırmaq olmaz. Düşünürəm ki, S.Rüstəmxanlının bu yanaşmaları Azərbaycanın yeni nəsillər üçün hava və su kimi gərəkli istinadlardır. Şeirin davamında oxuyuruq:

İpək nəğmələrin güllə batmazdı,
Qolunu qandalla bağlamaq olmaz.
Bu taydan o taya arxayın keçən
O taydan bu taya arxayın keçən.
Dilin sənədini yoxlamaq olmaz,
Sevginin yolunu saxlamaq olmaz!
Hanı xanım çaylar, hanı bəy göllər? -
Dillərdə cücərən yurdun izidir.
Yüz yol yaralanmış doğma kəlmələr
Xalqımın döyüşlər xəritəsidir.
Qarabağ, Qaradağ... di seç, di ayır,
Dağları basılmaz ordum sanmışam.
Harda bircə kəlmə sözüm yaşayır
Oranı halalca yurdum sanmışam.
Sağ ol, ana dilimli Ana öyüdüm!
Füzuli eşqindən divanə dilim!
Ürəyim başına nəfəs dərmədən
Fırlanıb kül olan pərvanə dilim!
Üstünə yüyürdü Quran dilləri,
Peyğəmbər dilləri, qanun dilləri...

Bir sözlə, S.Rüstəmxanlı üçün keçmişə müraciət əslində yaddaşa müraciət mahiyyəti daşıyır. Onun düşüncəsinə görə keçmişini unudan hər hansı bir şəxs gələcəyə gedən doğru yolu da görə bilməz.

S.Rüstəmxanlının çox dəyərli esselərindən biri də "Barış - türkün tanrısı" adlanır. Ümumiyyətlə, müəllif bütün esselərinin mahiyyətinə bir tarixi güc təpəri gətirir. Onun düşüncəsinə görə elə tarix insanların güc mənbəyidir.

Müasir Avropaya türkün tarixi gücü yaxşı məlumdur. Türkün nəyə qadir olduğu, türkün ən qatı müqavimətləri, inadları qırmaq qüdrəti haqqında qeyri türk işğalçıları, güc mərkəzləri kifayət qədər məlumatlıdır. Ancaq onlar unudurlar ki, türk haqsızlığın həddi aşdığı məqamda gücə tapınır. Türk birinci növbədə öz tanrının barış təlqin edən gücünü əsas götürür. Türk üçün sülh daha önəmlidir. S.Rüstəmxanlı "Barış - türkün tanrısı" essesinin sonunda belə bir qənaətə gəlir: *"İllərdən bəri apardığım təbliğat budur: Azərbaycanın bütün milli azlıqları - bizim böyük ailənin üzvləridi. Mən ailəmizdə böyük qardaş olmağın məsuliyyətini yaxşı bildiyimə görə, onların hər birinə özəl bir sevgi və qırğı ilə yanaşmağın tərəfdarıyam. Biz bununla böyüyürük Özünü sevmək və tanıtmaq yaxşı şeydir, ancaq bu, reklam üçün deyil, tarix və gələcək üçün olmalı, əməli iş çevrilməlidir: bu, qonşuları çiyrəndirib səndən uzaqlaş dırmamalıdır. Xırda adamların yalançı vətənpərvərliyi və etnik eqoizmi öz millətinin əleyhinə çevrilir, dost qazandır maqdansa, düşmən qazandırır. Belə zərif və ciddi mövzulara çirkin ürək və kobud əllə toxunmaq olmaz".* Zənnimcə, yaxşı qənaətdir. Ölkəni parçalamaq, seperatizm təbliğatı, seperatçılıq iddialarına heç vaxt uğur gətirə bilməz. S.Rüstəmxanlı demək istəyir ki, biz birlikdə gücləyük. Bizim qüdrətimiz, varlığımız özümüzü həm maddi, həm də mənəvi mühafizə edə bilməyimiz birliyimizdən asılıdır.

Şair S.Rüstəmxanlı millətin böyük oğludur. Onun bütün qənaətləri xalqı, vətəni qorumağa yönəlikdir.

***02.09.2024***